Nemət Roman



## NƏ VAR

Əl əldən köməyin əsirgəməsə,
Saf arzu diləyə çatmağa nə var?
Tanısaq dünyanın əyrisin, düzün,
Qəm yükün kürəkdən atmağa nə var?

Hər qardaş deyənlər sözə düz çıxa,
Gördüyün yuxular yüzə yüz çıxa,
Bir ömür qarşına bircə üz çıxa,
Ehtiyat etmədən yatmağa nə var.

Tanısaq yalanı, bilsək doğrunu,
Nitqindən tutarıq xain oğrunu.
Özümüzçün edib sorsaq sorğunu,
Elmlə dəryaya batmağa nə var?

Yer əkib, şumlayıb, səpsək də taxıl,
Bir zəhmət, bir az da olmalı ağıl.
Xeyirsiz nəsihət etməsə paxıl
Bağçanın barını satmağa nə var?

A Nemət, belədir belə bu millət,
Onunçün bizlərə yazılıb zillət.
Ortaya tullayıb bircə parça ət
Aslanı köpəyə qatmağa nə var?

## AXTARMA MƏNİ

Xəzan etdin ömrü cavan çağında,
Kədər əkdin məhəbbətin bağında.
Görəmməzsən solunda, nə sağında
Görüblər küçədə dəlitək səni,
Axtarma, nə olar, axtarma məni.

Salmısan canıma közü, dözürəm,
Qoymusan sən yaşlı gözü, dözürəm,
Götürüb hər acı sözü, dözürəm,
Söylədin ümidtək saxta kəlməni,
Axtarma, nə olar, axtarma məni.

Qalıbdır ayrılıq ürəkdə yara,
Eşitdim taleyin paradan para.
Həqiqət belədir, ha axtar, ara...
Gümanla salmısan yollara çəni,
Axtarma, nə olar, axdarma məni.

Geyindin qismətdi kədər donunu,
Sən özün heç etdin özün, sonunu.
Ağlama qaldırıb səsin tonunu...
Səhvlərin sonacan sıxacaq səni,
Axtarma, nə olar, axtarma məni.

## AĞLAMA

Gələcəyəm son qoyaraq həsrətə,
Bir dəfəlik vida edib qürbətə,
Dəyişmərəm cah-cəlala, sərvətə,
İntizarın alır canım, ağlama,
Xəstə canla ürəyimi dağlama.

Gələcəyəm zülmün bağrın yarmağa,
Qollarımı al boynuna sarmağa.
Dərd kədərdən qoparmağa, almağa...
Titrədirsən bu sol yanım, ağlama,
Xəstə canla ürəyimi dağlama.

Gələcəyəm hər an sənlə qalmağa,
Qara saçların seyrinə dalmağa,
Qoymaram gül yanağını solmağa,
Sən mənim sübhüm, həm danım, ağlama,
Xəstə canla ürəyimi dağlama.

Qoymaram qalasan mənsizlikdə sən,
Qoyarammı düşsün qara saça dən?
Səbr edib bir azca, bir azca dözsən,
Gələcəm tökülsə qanım, ağlama,
Xəstə canla ürəyimi dağlama.

ədalət.- 2020.- 27 oktyabr